

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

7 avqust 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 30 (3742)


# Zəfərlərimizin müəllifi

**2003-cü il avqustun 4-də dövlətçilik tariximizdə mühüm hadisə baş verdi. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə cənab İlham Əliyev ölkəmizin Baş naziri seçildi və bu, Azərbaycanın siyasi tarixində mühüm dönüş nöqtəsinə çevrildi.**



Qətiyyətli yeni milli liderin hökumət rəhbərliyinə gəlişi həm Azərbaycan, həm də regionumuz üçün mühüm siyasi proseslər fonunda baş vermişdi. O zaman ölkəmiz böyük bir strateji mərhələnin astanasında idi. Ümummilli lider Heydər Əliyevin uğurla həyata keçirdiyi inkişaf kursunun nailiyyətləri sayəsində müstəqil Azərbaycan dövləti 1993-cü ildən sonrakı 10 il müddətində sürətli islahatlar yolu keçmiş, xalqımız və dövlətimiz üçün taleyüklü məsələlər həllini tapmışdı.

## O, qüdrətli Azərbaycan yaratdı

> *“Azərbaycan Prezidenti həm də dünyaya töhfə verən siyasətçidir”*

Azərbaycanın Baş nazirinin cənab İlham Əliyevin olması həm ölkə vətəndaşlarına, həm də beynəlxalq ictimaiyyətə yeni strateji dövrə keçid mərhələsində respublikanın siyasi sabitlik və idarəçilik baxımından yol xəritəsini təqdim etmiş oldu. Bu seçim qısa zamandan sonra zəmanəsinin ən parlaq ölkə liderlərindən biri kimi bütün dünyada tanınaraq böyük nüfuz qazanacaq dövlət xadiminin özünün də idarəçilikdə daha fəal və məsuliyyətli mövqe tutmasının, gələcək prezidentlik missiyası üçün yeni bir təcrübə mərhələsinin başlanğıcı idi. Belə bir əlamətdar hadisə Azərbaycan dövlətçiliyində sabitlik, ardıcıllıq və inkişaf prinsipinin əsaslandığı tarixi bir dönəmdir. Bunu 15 oktyabr 2003-cü ilin prezident seçkisində xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin rəhbərliyi ilə yaşanan tarixi reallıqlar, müstəqil dövlətimizə qazandırılan misilsiz nailiyyətlər bir daha təsdiqləmiş oldu.

Qətiyyətli dövlət xadimi İlham Əliyevin Azərbaycanın Baş naziri, daha sonra Prezidenti seçilməsi ilə respublikada hakimiyyətin dinc və konstitusion yolla ötürülməsi ənənəsi təmin olundu, cəmiyyətimizdə siyasi mədəniyyət ənənələri bərqərar oldu. Bu, regionda çevrilişlərin və qeyri-sabitliklərin baş verdiyi bir dövrdə Azərbaycanın daxili sabitliyini, inkişaf xəttinin ardıcıllığını qorumasına imkan verdi. Prezident İlham Əliyevin yüksək idarəçilik məharəti ilə ölkəmizə sabit və uzunmüddətli liderliyi dövlət institutlarının möhkəmləndirilməsinə xidmət etdi. İqtisadi inkişaf və neft strategiyasının uğurla həyata keçirilməsi bu dövrün Azərbaycan üçün ən mühüm tarixi nailiyyətlərindəndir. Ümummilli liderin əsasını qoyduğu "neft strategiyası" Prezident İlham Əliyev dövründə tam reallaşdırıldı. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi nəhəng enerji-kommunikasiya layihələri həyata vəsiqə aldı. Azərbaycandan Avropaya birbaşa qaz ixracına başlandı. Bu layihələr nəticəsində Azərbaycan beynəlxalq arenada ən etibarlı tərəfdaşlardan birinə çevrildi, iqtisadi müstəqillik qazanmaqla yanaşı, siyasi müstəqilliyinin təməllərini daha da möhkəmləndirdi, beynəlxalq aləmdə ölkəmizin mövqeləri gücləndi.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ordu quruculuğu istiqamətində tarixi işlər görüldü və xalqımızı ən böyük hədəfinə çatdırdı. Ordumuzun gücü ilə torpaqlarımızı qısa zamanda düşməndən təmizləyərək Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə nail oldu. Azərbaycanın son 200 ildəki ən böyük nailiyyəti olan bu şanlı Zəfər cənab İlham Əliyevin təkcə hərbi deyil, həm də siyasi və diplomatik liderliyinin nəticəsidir. Bu Qələbə Azərbaycan Prezidentinin uzun illər ərzində addım-addım irəli apardığı sistemli siyasətin - ordu quruculuğu, cəmiyyətdə vətənpərvərlik tərbiyəsinin, vətəndaş məsuliyyətinin gücləndirilməsi, informasiya savaşı, beynəlxalq diplomatiyanın zirvəsi idi.

# Sabitlik enerji ilə başlayır

## Enerji diplomatiyamız sərhədləri aşır

Azərbaycan son illərdə enerji siyasətini təkcə Avropa bazarlarına istiqamətləndirməklə kifayətlənmir. Cənub istiqamətində, Yaxın Şərqə doğru yeni strateji dəhlizlərin qurulmasına da başlayıb. Məhz bu istiqamətdə Suriyanın bərpası kontekstində siyasi iradə ilə atılan addımlar Azərbaycanın regional təsir gücünü artırmaq üçün yumşaq güc alətlərinə nə dərəcədə səriştəli şəkildə yanaşdığını sübut edir.

Suriyanın İdlib, Afrin, Əl-Bab və Cerablus bölgələrinə Azərbaycan qazının nəqli bu ölkənin uzunmüddətli müharibə nəticəsində məhv olmuş sosial-iqtisadi infrastrukturunun yenidən qurulmasına real və praktik töhfə verməklə yanaşı, Azərbaycanın öz xarici siyasət alətlərində enerji vasitəsilə sabitlik transferinə keçdiyini göstərir. Qazın tədarükü sayəsində bu bölgələrdə həyat normal ritminə qayıdacaq – kiçik sənaye müəssisələri fəaliyyətə başlayacaq, insanlar öz doğma yerlərinə qayıtmağa təşviq olunacaq, sosial sabitlik hissi bərpa ediləcək.

Azərbaycanın Suriyaya qaz ixracı layihəsi regional güclərin geosiyasi maraqlarının üst-üstə düşdüyü strateji bir platformadır. Təşəbbüsün gerçəkləşməsində Türkiyə ilə Azərbaycan arasında uzun illərdir qurulan qarşılıqlı strateji etimad və sinxron koordinasiya həlledici rol oynayır. Əslində, bu, iki ölkənin birgə hərəkət mexanizmlərinin artıq post-münaqişə zonalarına da daşındığını göstərir. Ankaranın Suriyanın şimal-qərbində – İdlib, Afrin, Əl-Bab və Cerablusda – nəzarəti altında saxladığı ərazilər, həm təhlükəsizlik baxımından, həm də sosial-iqtisadi stabilliyin qurulması üçün siyasi laboratoriya rolunu oynayır. Azərbaycan məhz bu kontekstdə həmin bölgələrə enerji ixrac etməklə özünü həm də regional bərpa tərəfdaşı kimi təqdim edir.

Türkiyə ilə sinxron şəkildə aparılan bu siyasət həm də Ankaranın regional strategiyası ilə Azərbaycanın xarici siyasət prioritetlərinin üst-üstə düşməsinin təzahürüdür. Əgər daha əvvəl Bakı ilə Ankara əsasən Avrasiya dəhlizləri üzərində əməkdaşlıq edirdilərsə, indi bu əməkdaşlıq Yaxın Şərqdə sosial mühəndislik və post-münaqişə idarəçiliyi səviyyəsinə keçib. Azərbaycan qazının Suriyaya yönləndirilməsi həm də regional enerji xəritəsini dəyişdirir. Artıq Bakı təkcə TAP və TANAP vasitəsilə Avropaya çıxan ölkə deyil, eyni zamanda Cənubdan Yaxın Şərqə strateji enerji arteriyası açan regional gücdür. Bütün bu addımlar isə onu gələcəkdə İordaniya, Livan və hətta İraq bazarları üçün də cəlbedici enerji təchizatçısına çevirir.

Azərbaycanın Suriyaya qaz ixrac etməsi ilə başlayan yeni mərhələ təkcə enerji siyasətində transformasiya deyil, eyni zamanda, ölkəmizin beynəlxalq siyasi imicinin və regional güc statusunun yenidən dizaynıdır.

# Ali diqqət

## Polisin sosial müdafiəsi gücləndirilir

Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək üçün polisin fəaliyyətinin maliyyələşdirilməsi mənbələri artırılıb.

Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi “Polis haqqında” Qanuna edilən dəyişiklikdə əksini tapıb.

Qanuna əsasən, polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə aşağıdakı vəsaitlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) xəzinə hesabına köçürüləcək:

- polis orqanları tərəfindən istintaqı aparılan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi üçün ibtidai araşdırma dövründə dövlət büdcəsinə köçürülmüş vəsaitin 5 faizi;
- polis orqanları tərəfindən istintaqı aparılan cinayət işləri üzrə Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün dövlət büdcəsinə edilmiş ödənişdən daxil olan vəsaitin 5 faizi.

Nəzərdə tutulmuş vəsaitdən istifadə qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunacaq.

# Orta Dəhliz, ortaq maraq

## Xəzərdən dünyaya yeni qapı açılıb

Prezident İlham Əliyevin apardığı nəqliyyat siyasəti sayəsində Azərbaycan dünyanın ən əhəmiyyətli tranzit ölkələrindən birinə çevrilir. Bu məqsədlə Orta dəhlizdə yüklərin tez və təhlükəsiz daşınması üçün dövlət başçısı regional ölkələrlə səmərəli əməkdaşlıq qurur ki, bu da ölkəmizin ərazisindən keçən bu qlobal dəhlizin səmərəliliyinin daha da artırılmasıdır. Bunun üçün regionun "ürəyi" sayılan Beynəlxalq Dəniz Ticarət Limanında 2025-ci ilin 6 ayında 3,9 milyon tondan artıq yük aşırılıb ki, bu da ötən ilin eyni dövrünün göstəricisindən 6,3 faiz çoxdur. İlin birinci yarısında limanda aşırılmış TEU konteyner (20 fut ekvivalenti) sayı isə 53 mini ötərək ötən ilin analoji dövrünün göstəricisini 71,8 faiz üstələyib.

Təbii ki, bu yüksək artım Azərbaycanın nəqliyyat və logistika sahəsində strateji mövqeyini gücləndirir.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev avqustun 5-də “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 237-VIIQD nömrəli Qanununun tətbiqi və “Polis haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.*

*Prezident İlham Əliyev avqustun 5-də Naxçıvan Muxtar Respublikanın paylayıcı elektrik şəbəkəsinin yenidən qurulması və bərpası ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.*

*Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə Fəxrəddin Manaf oğlu Manafov “Şöhrət” ordeni ilə təltif edilib. Bununla bağlı Prezident İlham Əliyev avqustun 1-də Sərəncam imzalayıb.*

*"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilib. Bununla bağlı Prezident İlham Əliyev müvafiq qanununu təsdiqləyib. Yeni qanunla prokurorluq işçisinin prokurorluqda qulluqda olmasının yaş həddi 60-dan 65 yaşa qaldırılıb.*


Əsas tələb vətəndaş məmnunluğudur..2

Əbədiləşən adlar..................................3

Nəzarət daha da gücləndirilir................3

Xankəndidən üzü Zəngəzura................4

# Respublika Xəbərləri

### Regional məsələlər müzakirə olunub

Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov arasında telefon danışığı olub. Telefon danışığı zamanı Azərbaycanla Türkiyə arasındakı ikitərəfli əlaqələr və regional əməkdaşlıq məsələləri müzakirə olunub.

### Qarabağda iqtisadi canlanma başlayır

İşğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın bərpası, iqtisadi fəaliyyət və məşğulluğun təmin edilməsində mühüm nəticələr əldə edilib. Xankəndi, Xocalı və Ağdərəyə 56 milyon manatdan çox investisiya qoyulub. Ümumilikdə 506 obyektin icarəyə verilməsi təmin olunub, bu obyektlərdə 2 mindən çox şəxs işlə təmin edilib.

### Əhalinin banklarda pulu artıb

Bu ilin iyulun 1-nə Azərbaycan banklarının depozit portfeli 42 milyard 954 milyon manat təşkil edib. Mərkəzi Bankın məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz çoxdur. Bunun 56,6 faizi qeyri-maliyyə təşkilatlarının payına düşüb.

### Ağdamda sosial mərkəz yaradılıb

Ağdam rayonunun Quzanlı qəsəbəsində Sosial Xidmətlər Agentliyinin yeni Sosial Xidmət Mərkəzi fəaliyyətə başlayıb. Mərkəz ay ərzində 50-dək uşağa xidmət göstərəcək.

### Birgə çağırış

Daxili İşlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyi yanğın təhlükəsizliyi ilə bağlı birgə çağırış ediblər. Yay mövsümündə havaların isti və quraq keçməsi ilə meşəlik və açıq sahələrdə yanğın təhlükəsinin artdığını nəzərə alaraq hər kəsin yanğın təhlükəsizliyi qaydalarına əməl etməsi tələb olunur.

### Minatəmizləmə davam edir

Azad olunan ərazilərdə iyul ayı ərzində 57 tank əleyhinə mina, 265 piyada əleyhinə mina, 2007 partlamamış hərbi sursat aşkarlanıb və zərərsizləşdirilib. Azərbaycan Minatəmizləmə Agentliyinin məlumatına görə, həmçinin ötən ay 7 min hektardan çox ərazi minalardan təmizlənib.

### Turistlərin sayında yüksəliş

Bu il səyahət üçün Azərbaycanı seçən afrikalı turistlərin sayında əhəmiyyətli artım olub. İlin əvvəlindən Afrikadan Azərbaycana 7 800-dən çox turist gəlib. Bu isə ötən ilin göstəricisi ilə müqayisədə 29 faiz çoxdur. Yarım il ərzində isə Azərbaycan 178 ölkədən təxminən bir milyon turist qəbul edib.

### Azərbaycan hərbçiləri təlimdədir

Azərbaycan hərbçiləri Gürcüstanda keçirilən çoxmillətli "Agile Spirit" təlimlərində iştirak edirlər. Müdafiə Nazirliyinin yüksək rütbəli hərbçiləri təlimlərə müşahidəçi qismində qatılıblar. Gürcüstan və Türkiyədə keçirilən bu təlimlər regional əməkdaşlığın möhkəmlənməsinə töhfə verir.

### Enerji ixracı coğrafiyamız genişlənir

İndi artıq Suriya da Azərbaycan qazı alır. Bununla da mavi yanacağımızı idxal edən ölkələrin sayı 14 oldu. Türkiyənin Kilis şəhərində cari il avqustun 2-də Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya nəqlinə başlanılması ilə bağlı tədbir keçirilib.

### Özünüməşğulluq təmin edilir

Son bir ayda paytaxt və regionlarda özünüməşğulluq proqramı üzrə 2114 şəxs üçün kiçik təsərrüfatlar qurulub. Dövlət Məşğulluq Agentliyindən bildirilib ki, proqrama cəlb olunan şəxslər üçün ilk mərhələdə təlimlər təşkil edilib, bilik və bacarıqlar öyrədilib. Təlimləri uğurla bitirən proqram iştirakçıları sonda aktivlərlə təmin olunublar.

### Şagirdlərin yerdəyişməsi başlayıb

Avqustun 5-də 2025-2026-cı tədris ili üzrə şagird yerdəyişməsinə start verilib. Proses sy.edu.az elektron sistemi üzərindən həyata keçirilir. Yerdəyişmə 2-9 və 11-ci siniflər üçün 5 avqust saat 15:00-da aktivləşdirilib, 10-cu siniflər üçün isə 12 avqust saat 11:00-dan aktivləşdiriləcək. Proses 20 avqust 18:00-a qədər davam edəcək.

# Əsas tələb vətəndaş məmnunluğudur

## Vətəndaşlar DİN rəhbərliyinə birbaşa müraciət imkanı qazanıblar

Müasir dövrdə dövlət orqanlarının vətəndaşlara yaxın olması, onların müraciətlərinə çevik reaksiya verilməsi ictimai etimadın möhkəmlənməsində əsas şərtlərdəndir. Daxili İşlər Nazirliyi son illərdə müraciət mexanizmlərini həm rəqəmsal, həm də ənənəvi istiqamətdə genişləndirərək vətəndaşlar üçün əlçatan bir sistem formalaşdırılıb.

Bu gün vətəndaşın polisə müraciət etməsi üçün əlində müxtəlif vasitələr mövcuddur. Rəqəmsal texnologiyaların tətbiqi ilə formalaşan onlayn platformalar, mobil tətbiq və zəng mərkəzi sayəsində müraciətlər sürətlə qəbul edilir və operativ cavablandırılır. DİN-in rəsmi sosial şəbəkə səhifələri üzərindən də vətəndaşlar müraciətlərini birbaşa rəhbərliyə ünvanlaya bilirlər.

### Vətəndaşlara asan müraciət etmək imkanı yaradılıb

Sosial şəbəkələr üzərindən polis orqanlarına müraciət imkanları vətəndaşla polis arasında münasibətlərin nə qədər yaxınlaşdığını, yaxşılaşdığını da göstərir. Bu platformalar vasitəsilə müraciət etmək ilk növbədə əlçatanlığı və sürəti təmin edib. Vətəndaş əlavə qeydiyyat və mürəkkəb prosedurlara ehtiyac duymadan birbaşa istifadə etdiyi sosial media hesabından sözünü çatdıra bilir.

Bəzən ictimaiyyətə açıq şəkildə edilən müraciətlər geniş müzakirə predmeti olur və bu da şəffaflıqla yanaşı, ictimai nəzarətin formalaşmasına xidmət edir. Yəni sosial şəbəkələr üzərindən vətəndaşlarla qarşılıqlı və canlı ünsiyyət mühiti yaradılıb. Şəxsi mesajlar, şərhlər və paylaşımlar vasitəsilə vətəndaşlar suallarına tez cavab almaq, şikayətlərini dilə gətirmək və bəzən də təşəkkürlərini çatdırmaq imkanı əldə edirlər.

Polis sosial şəbəkə resurslarından yalnız müraciətləri toplamaq üçün yox, əhalinin maarifləndirilməsi və vacib məlumatların operativ şəkildə çatdırılması baxımından da səmərəli vasitə kimi istifadə edir. Beləliklə, bir tərəfdən vətəndaşların səsi eşidilir, digər tərəfdən isə polisin məlumatlandırıcı və profilaktik xarakterli sözü ictimaiyyətə çevik şəkildə ötürülür.

### İl ərzində onminlərlə müraciətə baxılır

Apardığımız təhlillər bu imkanların real nəticələr verdiyini sübut edir. Cari ilin təkcə iyul ayı ərzində Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki səhifələrinin mesaj bölməsinə 4231 müraciət daxil olub və onların hər biri cavablandırılıb. Bu müraciətlərin 897-si (219-u təşəkkür məktubu) qeydiyyata alınması və aidiyyəti üzrə yönləndirilməsi üçün Nazirliyin Katibliyinə təqdim olunub.

Müraciətlərin məzmununa nəzər salanda, onların geniş spektri əhatə etdiyini görürük. Onların 916-sı cinayətkarlıqla mübarizəyə dair, 1534-ü qanunvericilik və digər məsələlərə bağlı, 935-i əməkdaşların fəaliyyətinin qanunauyğunluğuna dair, 428-i Dövlət Yol Polisinin fəaliyyəti üzrə, 146-sı ictimai təhlükəsizlik məsələləri ilə əlaqədar, 229-u vakansiyalar və xidmətə qəbul barədə, 48-i isə istintaq və təhqiqat qurumlarının fəaliyyətinə aid olub.

### Polis - vətəndaş münasibətləri güclənir

Cinayət faktı və hüquqpozmalarla bağlı növbətçi hissələr və "102" zəng xidməti vasitəsilə polisə gündəlik daxil olan məlumatları buraya aid edəndə, vətəndaş müraciətlərinə baxılmasının və problemlərin həll edilməsinin nə qədər genişmiqyaslı iş olduğunu təsəvvür etməmək mümkün deyil.

Bütün bunlarla yanaşı onu da qeyd etməliyik ki, DİN ənənəvi qəbul praktikasını da qoruyub saxlayır. Nazirliyin rəhbərliyi hər ay müxtəlif bölgələrdə vətəndaş qəbul günləri keçirir. Yerli polis orqanlarının məsul şəxslərinin də vətəndaşları qəbul etmə günləri müəyyən edilib. Bu, xüsusən rəqəmsal müraciət imkanlarından istifadə etməkdə çətinlik çəkən, internetə çıxışı olmayan şəxslər üçün mühüm əhəmiyyət daşıyır. Qəbul zamanı vətəndaşlar öz şikayət, təklif və müraciətlərini şəxsən çatdırmaq imkanı qazanırlar.

Beləliklə, Daxili İşlər Nazirliyi müraciət sistemini elə qurub ki, həm müasir texnologiyalarla işləməyi bacaran vətəndaş, həm də rəqəmsal bacarıqları olmayan kəsim eyni dərəcədə faydalana bilsin. Elektron platformalar, sosial şəbəkə kanalları sürət və rahatlığı təmin edərkən, ənənəvi qəbul günləri birbaşa ünsiyyəti və polis-vətəndaş münasibətlərini gücləndirir. Bu isə DİN rəhbərliyinin qarşıya əsas vəzifə kimi qoyduğu vətəndaşın səsini tez eşidib, doğru və effektiv şəkildə həll etmək, məmnunluğunu qazanmaq kimi tələblərinin reallaşması deməkdir.

*Rəşad Mehtiyev*

# Qarabağa səfər asanlaşıb

## Vətəndaşlar icazəni "E-Polis"dən də ala bilərlər

Daxili İşlər Nazirliyi vətəndaşların rahatlığını və dövlət xidmətlərindən istifadədə məmnunluğunu artırmaq məqsədilə "E-Polis" mobil tətbiqini davamlı olaraq təkmilləşdirir.

Artıq Qarabağa səfər edənlər "E-Polis"dən icazə ala bilərlər. Bu yenilik sayəsində işğaldan azad olunan bölgələrə səfərlərdə icazə prosesi daha sürətli və rahat təşkil olunur.

Qarabağa getmək istəyənlər mobil tətbiqə yeni əlavə edilən funksiya vasitəsilə icazəni elektron qaydada ala bilər. Bunun üçün tətbiqə daxil olub ana səhifədəki "Qarabağa icazə" və ya "Xidmətlər" siyahısından "İşğaldan azad olunmuş ərazilərə buraxılış icazəsinin alınması" xanası seçilməlidir. Açılan pəncərədə "Müraciət et" düyməsini sıxdıqdan sonra bildirişlərin vaxtında çatması üçün əlaqə vasitələri daxil edilir. Növbəti mərhələdə səfər etmək istənilən ərazilər və tarixlər seçilir. İcazə maksimum 5 gün müddətinə verilir.




Qeyd edək ki, səfər zamanı istifadə edilən avtomobilin dövlət qeydiyyat və şəhadətnamə nömrələri tətbiqə daxil edildikdən sonra nəqliyyat vasitəsindəki oturacaq yerindən asılı olaraq maksimum 9 nəfərin getməsinə icazə verilir.

O da diqqətə çatdırılır ki, sərnişinlər həm yerli, həm də müvafiq sənədləri olan əcnəbi vətəndaşlar ola bilərlər. Ən sonda məlumatları yoxlayıb "Təsdiqlə" düyməsini sıxmaqla müraciəti tamamlamaq lazımdır. Bildirişlər şəxsin elektron kabineti varsa birbaşa ora, yoxdursa SMS vasitəsilə mobil nömrəyə göndərilir.

Yeri gəlmişkən, avqustun 6-dan etibarən "biletim.az" portalı və ya mobil tətbiqi üzərindən də bilet əldə edən vətəndaşlar işğaldan azad edilmiş ərazilərə avtomatik qaydada buraxılış əldə edəcəklər.

Bu funksionallığın təmin edilməsi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Daxili İşlər Nazirliyinin idarələrarası informasiya sistemləri arasında yaradılmış inteqrasiya nəticəsində mümkün olub."Biletim.az" portalı üzərindən işğaldan azad edilmiş ərazilərə bilet alınarkən təqdim olunan icazənin müddəti 5 gün təşkil edir.

Bu dəyişikliklər vətəndaşlar üçün prosedurların sadələşdirilməsi və səfərlərinin daha rahat keçməsi məqsədilə tətbiq olunur.

# Gecə-gündüz keşikdəyik

## Nəzarətdən yayınmış uşaqlar ailələrinə təhvil verilib

Yay mövsümündə havaların isti keçməsi ilə əlaqədar əhalinin çimərliklərə, meşəliklərə və digər istirahət zonalarına kütləvi axını müşahidə olunur. İstirahət edənlərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyi tərəfindən bu ərazilərdə fasiləsiz polis xidməti təşkil edilib.Həm rəsmi geyimdə, həm də mülki formada aşkar və gizli şəkildə xidmət aparan polislər nəzarətsiz qaldığına görə oğurlanan çantaları, qızıl-zinət əşyaları və müxtəlif məbləğlərdə pul vəsaitlərini, şüşələri açıq qalan avtomobillərdən talanan digər qiymətli əşyaların zərərçəkənlərə qaytarılmasını təmin ediblər.

Bundan başqa, Xəzər, Sabunçu, Sumqayıt, Lənkəran və Xaçmaz şəhər və rayonlarının sahilboyu istirahət zonalarında nəzarətdən yayınmış 87 uşaq tapılaraq valideynlərinə təhvil verilib.

Beləliklə, qeyd edə bilərik ki, polis əməkdaşlarının vaxtında və çevik reaksiyası sayəsində




uşaqların təhlükəsizliyi təmin edilib, mümkün xoşagəlməz halların qarşısı alınıb. İstirahət zonalarında təhlükəsizlik tədbirlərini davam etdirən polis əməkdaşlarının ölkə üzrə bütün bu tip ərazilərdə bundan sonra da ayıq-sayıq keşik çəkəcəkləri şübhəsizdir.

Ancaq bu hadisələr onu da göstərir ki, yay mövsümündə ictimai yerlərdə valideynlər uşaqlara nəzarət etmək kimi üzərlərinə düşən vəzifələrin həyata keçirilməsinə daha ciddi yanaşmalıdırlar. Xüsusən sıxlıq olan çimərliklərdə və ictimai yerlərdə azyaşlıların tək hərəkət etməsinə imkan verilməməlidir.

Ümumiyyətlə, uşaqlara yad insanlarla getməmək və şübhəli hallarda dərhal polisə müraciət etmək vərdişi aşılanmalıdır. Uşağa polis xidmətlərini tanıtmaq, "102" xidməti zəng mərkəzi və yaxınlıqdakı polis əməkdaşına necə müraciət etmək lazım olduğunu öyrətmək valideynlərə edilən əsas tövsiyələrdir.

# Əbədiləşən adlar

## Şəhid polis əməkdaşları unudulmur

Bu danılmaz faktdır ki, müstəqilliyimizin ilk illərində ərazi bütövlüyümüz uğrunda silaha sarılıb düşmənə layiqli cavab verən oğulları öz ətrafında birləşdirən yeganə güc Azərbaycan polisi idi. Vahid mərkəzdən idarə olunmayan qüvvələri hərbi nizam-intizama dəvət edən, onlara döyüş taktikasını, sözün əsl mənasında, silah tutmağı öyrədən həmkarlarımızın Vətən qarşısında göstərdiyi fədakarlıqlar bu gün unudulmur, yaddan çıxmır.

Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan polis əməkdaşlarının əziz xatirəsi hörmət və ehtramla anılır, adları əbədiləşdirilir, eləcə də o çətin dövrdə ictimai asayişi qoruyanların, cinayətkarlıqla qətiyyətli mübarizə aparanların döyüş yolu, mübarizə əzmi gənclərə örnək göstərilir.

Oğuz Rayon Polis Şöbəsinin şəhidlərimizə olan sayğısını, nəcib təşəbbüsünü də rayon sakinləri rəğbətlə qarşılayıblar. Belə ki, həmkarlarımız Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan polis kiçik serjantı Arzu Əliyevin məzarını abadlaşdırıblar.



Arzu Yaqub oğlu Əliyev 1963-cü ildə Oğuz rayonunun Padar kəndində doğulub. 1980-ci ildə Padar kənd orta məktəbini bitirib. N.K. Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbində təhsil alıb. O, Qarabağ müharibəsinə qədər Bakıda, Sumqayıtda və Şəki Şəhər Polis Şöbəsində xidmət edib. Müharibə başlayanda isə döyüşlərə qatılıb. 15 dekabr 1990-cı ildə Əsgəran rayonunun Cəmilli kəndinin erməni işğalçılarından müdafiəsində qəhrəmalıq göstərərək şəhid olub. Oxuduğu Padar kənd orta məktəbi və Oğuz şəhərində bir küçə onun adını daşıyır.

# Qan verib həyat qurtarırlar

## Bu da bir vətəndaşlıq borcudur



"Talassemiyasız həyat naminə" proqram layihəsinə əsasən ölkəmizdə talassemiya və hemofiliya xəstəliyindən əziyyət çəkənlərə yardım məqsədilə keçirilən qanvermərmə aksiyalarında polis hər zaman həmrəylik nümayiş etdirib.

Növbəti belə tədbir bugünlərdə Sabunçu Rayon Mühafizə İdarəsində Səhiyyə Nazirliyinin B.Eyvazov adına Respublika Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının təşkilatçılığı və dəstəyi ilə baş tutub.

Qan verib, can yaşatmaq üçün səfərbər olan həmkarlarımız hamılıqla aksiyada iştirak ediblər.

Əvvəlcə xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun qan qrupu müəyyən olunub, onların səhhətində hər hansı bir problemin olub-olmaması yoxlanıldıqdan sonra qanvermə aksiyasına start verilib. Həmkarlarımız qana ehtiyacı olan insanların həyatını qurtarmaq üçün belə nəcib təşəbbüslərin DİN rəhbərliyi tərəfindən hər zaman yüksək dəyərləndirildiyini qeyd edib, bunun həm də vətəndaşlıq borcu olduğunu bildirdilər.

# Məktublar razılıq əlamətidir

## Əsas meyar vəzifə borcuna sadiqlikdir

Bakı şəhər sakini Əzim Qafarov DİN-ə ünvanladığı məktubunda müraciətinə həssas yanaşılaraq məişət və sosial problemlərinin həlli üçün ona göstərilən maddi yardıma görə DİN rəhbərliyinə minnətdarlığını bildirir.

Vətəndaş Aytəkin Bayramova məktubunda vətəndaş müraciətlərinə, həmçinin onun müraciətinə göstərilən operativliyə və həyata keçirilən tədbirlərə görə xidməti vəzifələrini layiqincə yerinə yetirən Sumqayıt ŞPİ 3-cü Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Natiq Əkbərov məktubunda üzləşdiyi problemlə bağlı müraciəti üzrə aparılan obyektiv araşdırmalara görə Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

Bakı şəhər sakini Fərhad Fərhadlı məktubunda üzləşdiyi dələ-



duzluqla bağlı müraciətinə göstərilən operativliyə və obyektivliyə, həyata keçirilən tədbirlərlə müraciətinin müsbət həll olunmasına görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir, çətin və şərəfli xidmətlərində uğurlar arzulayır.

Vətəndaş Nihad Əlizadə DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar aparılan obyektiv araşdırmalara görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirib. Vətəndaş Ülvi Əsgərov DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı yazıb. O, baş vermiş yol-nəqliyyat hadisəsi ilə əlaqədar aparılan obyektiv araşdırmalara görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirib.

Vətəndaş Kəmalə Məmmədzadə DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında Daxili İşlər Nazirliyinə etdiyi müraciətinə operativ baxıldığını və Suraxanı Rayon Polis İdarəsində obyektiv araşdırma aparılaraq müsbət həll olunduğunu bildirir. O, vətəndaş müraciətlərinə həssas yanaşılmasına görə DİN rəhbərliyinə, operativlik və göstərilən köməklik üçün Suraxanı RPİ-nin əməkdaşlarına təşəkkür edir.

Vətəndaş Səfər Cavadov "Facebook" sosial şəbəkəsindəki hesabında Azərbaycan polisinə təşəkkür postu paylaşıb. O, üzləşdiyi problemlə bağlı hesabında da paylaşaraq ictimailəşdirdiyi məsələyə Daxili İşlər Nazirliyindən dərhal reaksiya verildiyini və Xocalı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən müvafiq tədbirlərin həyata keçirilərək müraciətinin qısa müddətdə müsbət həll olunduğunu bildirir.

S.Cavadov vətəndaş müraciətlərinə həssas yanaşılmasına görə DİN rəhbərliyinə, operativlik və göstərilən köməklik üçün Xocalı RPŞ-nin əməkdaşlarına təşəkkür edir.

Vətəndaş Bahar Zeynalova DİN-in "Instagram" səhifəsinə yazdığı mesajında üzləşdiyi dələduzluqla bağlı müraciəti üzrə Pirallahı RPİ-də obyektiv araşdırma aparıldığını, müraciətinin müsbət həll olunduğunu və dəymiş maddi ziyanın ödətdirilməsində də köməklik göstərildiyini bildirir. O, vətəndaş müraciətlərinə həssas yanaşılmasına görə DİN rəhbərliyinə, göstərilmiş köməklik üçün Pirallahı RPİ-nin əməkdaşlarına təşəkkür edir.

# Uşaqlar qurban olmasın deyə…

## Polisin çağırışları insan həyatını qorumağa yönəlib

"Yol hərəkətində təhlükəsizliyin təmin olunması hər bir hərəkət iştirakçısının məsuliyyətli davranışından asılıdır. Təəssüf ki, bəzən valideynlər, xüsusilə də velosiped, moped və ya motosikletlə hərəkət edən şəxslər təhlükənin fərqində olmadan, azyaşlı övladlarını bu nəqliyyat vasitələrinin arxasında və ya əlavə oturacaq hissəsində daşımaqla onların həyatını ciddi təhlükə altına atırlar". Bu fikirlər DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin valideynlərə və qəyyumlara çağırışında yer alır. Çağrışda azyaşlıların bədən quruluşunun və reflekslərinin qəfil vəziyyətlərə qarşı müdafiəsiz olmaları və yüngül sayılan bir zərbədən belə ciddi xəsarətlər ala bilmələrinin qaçılmaz olduğu da diqqətə çatdırılır: "Heç bir səbəb, məsələn tələsiklik, məsafənin yaxın olması və ya şəxsi rahatlıq uşaqların həyatını təhlükəyə atmağa haqq qazandırmır. Qaydalara əməl etməklə faciədən yayınmaq mümkündür. Unutmayın ki, nə sonrakı peşimanlıq təhlükəni aradan qaldırır, nə də əzizlərinizi geri qaytarır!".

# Nəzarət daha da gücləndirilir

## Keçirilən tədbirlər ətraf mühitin qorunmasına yönəlib

Polis və müvafiq dövlət qurumlarının əməkdaşları tərəfindən Bakı, Sumqayıt, Xaçmaz, Şabran, Siyəzən, Neftçala şəhər və rayonlarında sahilboyu ərazilərdə keçirilən növbəti tədbirlər zamanı məişət tullantılarının təyin olunmuş yerlərdən kənara atılması, tullantı sularının kənara axıdılması, özbaşına tikinti işlərinin aparılması və qadağan olunmuş yerlərdə tütün çəkilməsi qeydə alınıb.

Tədbirlər çərçivəsində məişət tullantılarını tutumlardan (urnalardan) kənar yerlərə atan 24, sadalanan digər qadağan edilmiş əməllərə yol verən 5 nəfər barəsində polis əməkdaşları tərəfindən inzibati tədbir görülüb.

Bakı və Sumqayıt şəhərlərində, Xaçmaz və Lənkəran rayonlarında sahilboyu ərazilərdə aparılan növbəti tədbirlər zamanı məişət tullantılarının təyin olunmuş yerlərdən kənara atılması və tullantı sularının kənara təyinatsız axıdılması halları aşkarlanıb.

Keçirilən digər tədbirlərlə paytaxtın Xəzər, Səbail, Qaradağ, Pirallahı, Suraxanı rayonlarında 25, Sumqayıt, Xaçmaz və Lənkəranda isə 30 nəfərin məişət tullantılarını tutumlardan (urnalardan) kənar yerlərə atması, texniki və tullantı sularını kənara təyinatsız axıtması ilə bağlı faktlar protokollaşdırılıb.

# Marixuana və həşiş aşkarlandı

## Qazanc əldə etməyin asan yolunu seçmişdilər

Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı keçirilən növbəti əməliyyat tədbiri zamanı rayon sakinləri Babək Ələkbərov, Samir Qədirov və qardaşı Ceyhun Qədirov qeyd edilən cinayət əməlində şübhəli bilindikləri üçün saxlanılıblar.

Onlardan 10 kiloqrama yaxın marixuana və 4 kilqoramdan artıq həşiş aşkarlanıb. Saxlanılan şəxslər ifadələrində narkotik vasitələri satmaq məqsədi ilə əldə etdiklərini bildiriblər.

Faktla bağlı cinayət işi başlanılıb, adıçəkilən şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Baş İdarə tədbir keçirib

## Narkotik vasitələrin satışının qarşısı alındı

DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınması məqsədi ilə silsilə əməliyyat tədbirləri davam etdirilir.

Xəzər, Abşeron və İmişli rayonlarında keçirilən sonuncu əməliyyatlar zamanı narkokuryerlər - 56 yaşlı Kamil Hüseynzadə, 48 yaşlı Eldəniz Musayev və 44 yaşlı Rəşad İsmayılov saxlanılıblar.

Onlardan ümumilikdə 27 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana və narkotiklərin satışında istifadə olunan elektron tərəzilər aşkarlanıb.

Şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşları ilə cinayət əlaqəsinə girdiklərini etiraf edən saxlanılan şəxslər narkotik vasitələrin satışını təşkil etməyi planlaşdırıblar.

Faktlarla bağlı cinayət işi başlanılıb, hər üç şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Əməliyyat tədbirləri ilə…

## Narkokuryerlər saxlanıldı

Sabunçu Rayon Polis İdarəsinin NMB-nin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat keçiriblər.

Əməliyyat zamanı narkokuryerliklə məşğul olan əvvəllər də narkotiklə əlaqəli cinayətə görə məhkum olunmuş İlkin Aslan saxlanılıb. Ondan 5 kiloqram narkotik vasitə marixuana aşkarlanaraq götürülüb.

Saxlanılan şəxs ifadəsində narkotikləri sosial şəbəkədə tanış olduğu İran vətəndaşı vasitəsilə əldə etdiyini və ayrı-ayrı ünvanlara çatdırmaq müqabilində pul alacağını bildirib.

Faktla bağlı başlanan cinayət işi üzrə araşdırma davam etdirilir.

Qeyd edək ki, Sabunçu rayonunda polis əməkdaşları tərəfindən cari ilin əvvəlindən bu günə qədər keçirilən əməliyyatlar zamanı 70 kiloqram müxtəlif xassəli narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb.

# Xankəndidən üzü Zəngəzura

## Vaxt gələcək o torpaqlara da böyük qayıdış başlayacaq

**Əmirxeyir - Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasında, indi Çəmbərək (Krasnoselo) rayonunun kəndidir**. Rayon mərkəzindən 20 km şimal-qərbdə, dağlıq, meşəlik ərazidə yerləşir. Erməni mənbələrində kəndin adı Əmirxer, Əmirxeyir, Əmirxir, Əmirxer formalarında da qeyd edilir.

Toponim Əmir şəxs adı ilə türk dilində "Sıldırım, qaya","Sıldırımlı qaya" mənasında işlənən kayır, kair, kayr sözünün birləşməsindən əmələ gəlib.

Kənddə 1897-ci ildə 161 nəfər, 1919-cu ildə 151 nəfər azərbaycanlı yaşayıb. 1919-cu ilin mart ayının axırlarında kəndin sakinləri ermənilərin təcavüzünə məruz qalıb. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra kənddən qovulmuş azərbaycanlılar doğma ocaqlarına dönə bilib. Burada 1922-ci ildə 132 nəfər, 1926-cı ildə 216 nəfər,193-ci ildə 250 nəfər,1939-cu ildə 295 nəfər, 1970-ci ildə 715 nəfər, 1979-cu ildə 720 nəfər, 1987-ci ildə 500 nəfər azərbaycanlı yaşayıb. 1988-ci ilin noyabrın 24-28-də kəndin sakinləri tarixi-etnik torpaqlarından deportasiya edilib. İndi ermənilər yaşayır. Kəndin adı dəyişdirilib Kalavan qoyulub.

**Dağların ətəyində yerləşən Cevriş kəndinin özünəməxsus gözəl təbiəti var. Mənbələrdə qeyd olunur ku, 1590-cı ildə tərtib edilmiş "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə Cevriş formasında qeyd edilib**.

Erməni mənbələrində kəndin qədim adının Çivreş olduğu göstərilir. Erməncə bu kənd hal-hazırda "Crvej" adlanır. Kənddə tarixən yalnız azərbaycanlılar yaşayıb. Ermənilər buraya 1828–1929-cu illərdə İran və Türkiyədən köçürülüb.

Burada ermənilərlə yanaşı, 1873-cü ildə 43 nəfər, 1886-cı ildə 31 nəfər, 1897-ci ildə 58 nəfər azərbaycanlı yaşayıb.

1918-ci ildə azərbaycanlılar er-



mənilərin təcavüzünə məruz qalaraq deportasiya olunub. İndi burada yalnız ermənilər yaşayır.

**Qaraçanta (1935-ci ildən Əzizbəyov, 1991-ci ildən Areqnadem) — Ermənistan SSR Amasiya (Ağbaba) rayonunda kənddir.** Qaraçanta kəndi rayon mərkəzindən 6 km cənub-qərbdə, Gümrü-Amasiya yolunun sol tərəfində yerləşir. Xalqın "Hulley" adlandırdığı dağın ətəyində yerləşən kəndin 1.5 km cənubundan Arpaçay keçir. Kənddən Ələyəz dağını görmək mümkündür. Kəndin əhalisi 1897-ci ildə 440, 1905-ci ildə 665, 1914-cü ildə 729, 1931-ci ildə 692, 1959-cu ildə 803, 1980-ci ildə 1940 nəfər olub. 1988-ci ildə azərbaycanlıların Ermənistandan kütləvi şəkildə köçürülməsinə başlanan vaxt kənd əhalisi kəndi tərk edib. 1988-ci ilin sonuna olan bəzi məlumatlara görə kəndin əhalisi 1500 nəfər olub. Hazırda ermənilər yaşayır.

**Nalbənd kəndi rayon mərkəzindən 11 km məsafədə, Bəykənd çayının yanında yerləşir.** Qafqazın 5 verstlik xəritəsində qeyd edilib. 1930-cu illərdə Gümrü rayonunun tabeliyində olub. Burada 1930-cu illərdə Nalbənd adlı dörd toponim adı yer alır. Nalbənd kəndi, Nalbənd qışlağı, Nalbənd vağzalı, Nalbənd dəmiryolu. Toponim Azərbaycan dilində peşə mərasimində işlənən nalbənd (nalçı, atların ayağına nal vuran adam) sözündən yaranıb. Kənddə azərbaycanlılarla yanaşı ermənilər də yaşayıb. XX əsrin əvvəllərində, 1905-1906-cı illərdə baş verən erməni-müsəlman davasında azərbaycanlılar ermənilər tərəfindən sıxışdırılaraq deportasiya edilib. İndi yalnız ermənilər yaşayır.

**Dəlləkli İrəvan quberniyasının İrəvan qəzasında, sonradan Ellər (Kotayk, Abovyan) rayonunda, rayon mərkəzindən 23 km məsafədə yerləşir.** Toponim mərzili tayfasının bir qolunu təşkil edən dəlləkli nəsil adı əsasında əmələ gəlmişdir. Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 21.VI.1948-ci il fərmanı ilə kəndin adı dəyişdirilib Zovaşen (Gölkənd) qoyulmuşdur. Kənddə 1873-cü ildə 201 nəfər, 1886-cı ildə 317 nəfər, 1897-ci ildə 374 nəfər, 1904-cü ildə 396 nəfər, 1914-cü ildə 445 nəfər, 1916-cı ildə 466 nəfər yalnız azərbaycanlı türk yaşamışdır. 1918-ci ildə azərbaycanlılar ermənilərin soyqırımına məruz qalaraq deportasiya olunmuş və kəndə xaricdən köçürülən ermənilər yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hökuməti qurulandan sonra azərbaycanlılardan sağ qalanlar öz yurdlarına dönə bilmişdir. Burada ermənilərdən başqa 1922-ci ildə 24 nəfər, 1926-cı ildə 33 nəfər, 1931-ci ildə 40 nəfər azərbaycanlı türk yaşamışdır.

SSRİ Nazirlər Sovetinin xüsusi qərarından sonra 1947-1953-cü illərdə azərbaycanlılar zorla çıxarılmışdır. Hazırda ermənilər yaşayır.

**Xalisa - İrəvan quberniyasının İrəvan qəzasında, indi Vedi (Ararat) rayonunda kənddir.**

Rayon mərkəzindən 10 km cənub-şərqdə, Vedi çayından ayrılan arxın yanında yerləşir. Qafqazın 5 verstlik xəritəsində qeyd edilmişdir. Toponim «dövlət torpağı, dövlətə məxsus olan yer» mənasında işlənən ərəb mənşəli xalisə sözündən əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə toponimdir. Kənddə 1831-ci ildə 149 nəfər, 1873-cü ildə 864 nəfər, 1886-cı ildə 960 nəfər, 1897-ci ildə 1165 nəfər, 1904-cü ildə 957 nəfər, 1914-cü ildə 1053 nəfər, 1916-cı ildə 1159 nəfər azərbaycanlı yaşamışdır. 1918-ci illərdə azərbaycanlılar ermənilər tərəfindən qırğınlarla qovulmuşlar. Xaricdən (İran və Türkiyədən) köçürülən ermənilər bu kəndə də yerləşdirilmişdir. İndiki Ermənistanda sovet hakimiyyəti qurulandan sonra azərbaycanlılar öz doğma kəndlərinə dönə bilmişdir. 1922-ci ildə burada 311 nəfər azərbaycanlı, 290 erməni, 1926-cı ildə 331 nəfər azərbaycanlı, 240 nəfər erməni, 1931-ci ildə 588 nəfər azərbaycanlı, 276 erməni, 1972-ci ildə 1500 dən artıq azərbaycanlı, 600-ə qədər erməni yaşamışdır. 1988-ci ilin noyabr-dekabr aylarında azərbaycanlılar tamamilə Ermənistan dövləti tərəfindən tarixi-etnik torpaqlarından deportasiya olundular..




# Məsuliyyət təhlükədən qoruyur

## Faciəyə aparan qayda pozuntularına yol vermək olmaz

Baş Dövlət Yol Polisi tərəfindən qeydə alınan statistika bəzi moped və motosiklet sürücülərinin



yol hərəkəti qaydalarını kobud şəkildə pozaraq digər hərəkət iştirakçılarının həyat və sağlamlığı üçün ciddi təhlükə yaratdığını, məsələni diqqətdə saxlamağın vacibliyini bir daha gözlər önünə sərmiş oldu.

Belə ki, bu ilin ilk 6 ayı ərzində özlərinin törətdiyi kobud qayda pozuntuları nəticəsində 12 moped və motosiklet sürücüsü həyatını itirib, 23 nəfər isə ağır xəsarət alıb. Eyni zamanda onların törətdikləri qayda pozuntuları səbəbindən təqsiri olmayan 30-dan çox digər hərəkət iştirakçısı ağır xəsarət alıb və ya dünyasını dəyişib.

Moped və motosiklet sürücülərini qanunla müəyyən edilmiş qaydalara ciddi əməl etməyə, hərəkət zamanı məsuliyyətli davranaraq nəinki öz, həm də digər insanların həyatını təhlükəyə atmamağa çağıran Baş Dövlət Yol Polisi İdarəsi bununla bağlı müvafiq reydlərini və maarifləndirmə tədbirlərini ölkə ərazisində davam etdirir.

# Cibə sığan dünya

## Mobil telefonlar çağımızın inkişaf göstəricisidir

Bu gün nəinki özümüzü, çevrəmizi, hətta dünyanı belə mobil telefon olmadan təsəvvür edə bilmirik. Mobil telefonlar illərdir ki, həyatımızın, fəaliyyətimizin bir parçasına çevrilib. O ünsiyyət vasitəsi olmaqla yanaşı, həm də bir çox yeniliklərə imza atmaq üçün köməyindən istifadə etdiyimiz, sınaqdan çıxmış texnoloji uğurdur. Haqqında bildiyimiz və bilmədiyimiz çox mühüm faktlar var. Odur ki, bilmədiyiniz qeyri-adi məlumatları bir yerə toplayıb sizlərə təqdim edirik.

1. Dünyada ilk mobil zəng 1973-cü ildə Martin Kuper adlı amerikalı mühəndis tərəfindən edilib.

2. 2012-ci ildə Apple dünyanın 4 ölkəsində 4 saniyə ərzində 350 000-dən çox məhsul satıb. Belə qısa bir zamanda bu qədər satış dünya rekordu kimi qeydə alınıb.

3. Mobil telefonlarda kifayət qədər bakteriya var.

4. Baş ağrısı, yuxusuzluq kimi müxtəlif sağlamlıq problemləri mobil telefonlardan qaynaqlana bilər. Cib telefonları yaydıqları radiasiya ilə insan sağlamlığına mənfi təsir göstərir.

5. Yaponiyada mövcud olan mobil telefonların 90%-i suya davamlıdır.

6. Tarixdə ən çox satılan mobil telefon Nokia 1100-dır.

7. 1983-cü ildə ABŞ-da istehsal edilən ilk mobil telefonun qiyməti 4000 dollar olub.

8. Mobil telefonlardakı əməliyyat sisteminin Aya enən “Apollo 11” kosmik gəmisinin əməliyyat sistemindən daha yaxşı olduğunu bilirsinizmi?

9. Dünyadakı cib telefonlarının 70%-i Çində istehsal olunur.

10. Dünya əhalisinin təxminən 82%-nin cib telefonu var.

11. İstifadəçilərin 90%-i telefonları əlçatan yerdə saxlayır. Bu, sağlamlıq üçün çox zərərlidir.

12. Mobil telefon istifadəçilərinin əksəriyyəti telefonlarını ünsiyyətdən çox oyunlar və sosial media proqramları üçün istifadə edir.

13. Dünyada 4 milyarddan çox insanın cib telefonu var, ancaq cəmi 3,5 milyard insanın diş fırçası var.

14. Dünyadakı mobil telefonların sayı kompüterlərin sayından 5 dəfə çoxdur.

15. Mobil telefon sənayesi dünyada ən sürətlə böyüyən bazara sahibdir.

16. Aylıq mobil telefon danışığı xərciniz nə qədərdir? Celine Aarons 142 000 funt-sterlinqlə dünyanın ən yüksək mobil telefon xərcinə sahibdir.

# Aktual mövzuya ictimai baxış

## Erkən nikaha şərait yaradanlar məsuliyyətə cəlb olunacaqlar

Erkən nikaha şərait yaradan valideynlər, obyekt sahibləri, həmçinin din xadimi məsuliyyətə cəlb olunacaq. Bunu DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işlərin təşkili şöbəsinin rəis müavini polis polkovnik-leytenantı İmran Əliyev, “Erkən nikah və fəsadları: maarifləndirici tədbirlər silsiləsi” adlı konfransda çıxış edərkən bildirib. O, qeyd edib ki, erkən nikah faktı ilə üzləşən şəxslər 102 xidməti-zəng mərkəzi, e-polis tədbiqi, sosial şəbəkələr və poçt xidməti vasitəsilə, eləcə də 116 və 111 qaynar xətt üzərindən polisə məlumat verə bilərlər.

Suraxanı rayonu, Heydər Əliyev mərkəzində təşkil olunan konfransda polis icra hakimiyyətinin nümayəndləri, Daxili İşlər Nazirliyinin əməkdaşları, təhsil işçiləri, rayonun uğur qazanan gəncləri, idmançılar və tibb işçiləri iştirak ediblər.

Qeyri-Hökumət Təşkilatlarına



Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi, eləcə də “Cəmiyyətin və Medianın İnkişafı” İctimai Birliyinin təşəbbüsü ilə keçirilən layihədə təşkilatın sədri Lalə Azərtaş da çıxış edib. O, qeyd edib ki, bəzi kəndlərdə orta məktəblərin 9-cu sinifində qız uşaqları çox az saydadır: “Apardığımız araşdırma göstərir ki, buna səbəb həmin qızların ya nişanlanması, ya da ərə verilməsidir. Cəmiyyət bu problemə qarşı birgə mübarizə aparmalıdır”, – deyə sədr bildirib.

Suraxanı RİH başçısı aparatının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasının məsləhətçi psixoloqu Vəfa Qüdrətli isə bildirib ki, erkən nikah uşaqlığın əldən alınması deməkdir. Mütəxəssis qeyd edib ki, bu səbəbdən də qızların özlərini tanımadan ərə verilməsi sonradan böyük problemlərlə nəticələnir.

“Aparılan mübarizə tədbirlərinə baxmayaraq erkən nikah faktları yenə qeydə alınır”. Bu fikirləri isə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüqiqi-təminat şöbəsinin baş məsləhətçisi Rahil Süleymanzadə qeyd edib. O, bildirib ki, bir çox hallarda erkən nikaha məruz qalan qız sonradan məişət zorakılığı ilə üzləşir, daha sonra isə insan alverinin qurbanına çevrilir.

Məsələnin bioloji tərəfinə diqqət çəkən cərrah, mama-ginekoloq Yeganə Əliyeva erkən yaşda ərə verilən qızların hamiləlik vaxtı və sonrə üzləşdikləri problemlərdən bəhs edib. O bildirib ki, erkən yaşda ailə quran qızların orqanizmi tam formalaşmadığından hamiləliyi normal keçirə bilmir və erkən doğuş baş verir. Bu da bir çox hallarda ana və ya körpənin ölümü ilə nəticələnir.

Sonda erkən nikaha məcbur edilən 12 yaşlı qızın müsahibəsi təqdim olunub.

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik